


**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 28 fevral 2023-cü il


# BAKI UNİVERSİTETİ


MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


**2023-cü il Gənclər üçün Prezident mükafatçılarından 2-si BDU məzunudur**

→Səh.3

**Elmi seminar: "Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri"**

→Səh.4

**BDU kollektivi "Ana harayı" abidəsini ziyarət edib**

→Səh.5

**BDU beynəlxalq tədqiqatlar şəbəkəsinə qoşulur**

→Səh.6

**BDU ilə Ali Məhkəmə arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb**

→Səh.6

**BDU-da Avstriyanın Sosial İnnovasiyalar Mərkəzinin əməkdaşları ilə görüş**

→Səh.7

**BDU kollektivi Türkiyə səfirliyini ziyarət edib**

→Səh.9

**BDU alimləri Abşeron göllərinin ekoloji vəziyyətini tədqiq ediblər**

→Səh.10

**BDU-nun tələbələrdən ibarət futzal komandası I yeri tutub**

→Səh.11



**Azərbaycan Gəncləri Günü qeyd olunub**

→Səh.2



**"Heydər Əliyev və gənclər siyasəti" mövzusunda tədbir**

→Səh.4



**BDU Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu ilə tərəfdaşlıq müqaviləsi imzalayıb**

→Səh.4



**BDU Elmi Şurasının növbəti iclası**

→Səh.6



**BDU könüllüləri Türkiyədə zəlzələdən zərər çəkənlərə yardımtoplama kampaniyasında iştirak edirlər**

→Səh.12



## Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş Beynəlxalq konfrans keçirilib

***Fevralın 24-də Bakı Dövlət Universitetində (BDU) Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş Beynəlxalq konfrans keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Beynəlxalq konfransı giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. Xalqımız tarixi dədə-baba torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunub. XX əsrin dəhşətli faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar xislətli erməni siyasətinin nəticəsidir. 1992-ci ildə baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələrinin 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı törətməsi nəticəsində 613 nəfər öldürülüb, 1000 nəfər dinc sakin aldığı güllə yarasından əlil olub. 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb. Onlardan 150-sinin taleyi hələ də məlum deyil. Rektor Elçin Babayev vurğulayıb ki, bu faciəyə ilk dəfə hüquqi-siyasi qiyməti Ümummilli lider Heydər Əliyev verib. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayıb, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb. Bu gün artıq dünyanın bir çox ölkələrində erməni millətçilərinin törətdikləri qırğın soyqırım aktı kimi tanınır.

Elçin Babayev Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə yayılmasında Heydər Əliyev Fondunun müstəsna rolunu qeyd edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası bu soyqırımının təkcə xalqımıza qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönələn ən ağır cinayətlərdən biri kimi tanıdılması baxımından mühüm işlər həyata keçirir. "Xocalıya ədalət" kampaniyası bu tədbirlərə daha çox insanın cəlb olunmasında və soyqırım həqiqətlərinin daha geniş coğrafiyaya yayılmasında ciddi rol oynayıb.

BDU-nun rektoru 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun başladığı Vətən müharibəsinin Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdığını qeyd edib: "Rəşadətli Azərbaycan Ordusu şanlı qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. Xocalıda və digər torpaqlarımızda erməni təcavüzkarlarının vəhşicəsinə həyata keçirdiyi soyqırım aktları nəticəsində həlak olan bütün vətəndaşlarımızın intiqamı alındı".

Sonra Milli Məclisin üzvü, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, Daşkənd Mədəniyyət və İncəsənət İnstitutunun rektoru Eldor Şermanov, Türkiyə Respublikasının ölkəmizdəki keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz, "Soyqırım Həqiqətlərinin Tanıdılması" İctimai Birliyinin koordinatoru Mürvət Məmmədov, Qazaxıstanın Satbayev Universitetinin professoru (onlayn) Rinat İskakov, Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunun Beynəlxalq Hüquq kafedrasının professoru (onlayn) Arif Quliyev, BDU-nun Azərbaycan tarixi kafedrasının müdiri, professor Azad Rzayev çıxış ediblər.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii hissə ilə davam edib.

# 2023-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



***Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:***

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2023-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Axundova Ülviyyə Süleyman qızı
Əliyev Kamran Əbülfəz oğlu
Əliyeva Adilə Həbib qızı
Həşimov Orxan İlqar oğlu
Hüseynli Cabbar Rasim oğlu
İslamov Bəxtiyar Qabil oğlu
Məsimov Nicat Rafiq oğlu
Nağıyeva Mehriban Vidadi qızı
Zəkəryəzadə Tural Namiq oğlu

*birgə fəaliyyətə görə:*

Xəlilov Şahin İlqar oğlu
İmanzadə Günay Fikrət qızı.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 fevral 2023-cü il*

# BDU-da 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş kitab sərgisi



***BDU-nun Elmi Kitabxanasında 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş kitab sərgisi nümayiş olunur.***

Sərgidə ölkədə gənclər siyasətini əks etdirən kitablar, rəsmi sənədlər, fotolar, Vətən müharibəsində, olimpiya hərəkatında gənclərin önəmli roluna dair nəşrlər, eləcə də BDU-nun gənc tədqiqatçılarının müxtəlif elmi və dövri mətbuat səhifələrində dərc olunan məqalələri nümayiş olunur.

# 2 fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə

***Hörmətli gənclər!***

Sizi 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhvali-ruhiyyə və gələcək işlərinizdə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərimizə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirildiyi günün ölkəmizdə 1997-ci ildən etibarən Gənclər Günü kimi qeyd olunması ənənəsi bir daha təsdiq edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin və insan kapitalının məqsədyönlü inkişafının əsas istiqamətlərindəndir. Ötən müddətdə apardığımız işlər gənclərin maraqlarının və ahəngdar inkişafının təmin olunması üçün lazımi şərait yaradılmasını sürətləndirmiş, onların təşkilatlanmasında və ictimai-siyasi fəallığının artmasında əhəmiyyətli rol oynamışdır.

Göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda milli məfkurəyə sadiq və dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan bir nəsil yetişmişdir. Gənclərimiz bu gün həyatımızın bütün sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi gücünün, hərbi qüdrətinin artması və siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işində qüvvə və bacarığını əsirgəmir, zəngin mədəni irsimizin qorunub saxlanması və təbliği yolunda mühüm addımlar atırlar.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda, onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.

Əminəm ki, Azərbaycan gəncliyi tariximizin bu yeni dövründə də ölkəmizin gələcək inkişafına layiqli töhfələr verəcək, yeni-yeni nailiyyətləri ilə bizi sevindirəcəkdir.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri,*
*2 fevral 2023-cü il*

# Azərbaycan Gəncləri Günü qeyd olunub

## *Tədbirdə BDU-nun 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub.*



***Fevralın 2-də BDU-da 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycan Gəncləri Günü 26 il bundan öncə Ulu öndər Heydər Əliyevin imzaladığı Fərmanla təsis edilib. Məhz Ümummilli liderin müdrikliyi və uzaqgörənliyi sayəsində dövlətimizin gənclər siyasətinin mükəmməl qanunvericilik bazası yaradılıb, gənclərin sosial, iqtisadi, təhsil və digər problemlərinin həllinə yönəlmiş fərman və sərəncamlar, dövlət proqramları qəbul edilib. Hazırda Ulu öndər Heydər Əliyevin ləyaqətli davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı ilə gənclər siyasəti özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Gənclər hər bir dövlətdə insan kapitalının mühüm və ayrılmaz tərkib hissəsidir. 104 yaşlı Bakı Dövlət Universiteti də dövlətimizin uğurla həyata keçirdiyi gənclər siyasətinin gerçəkləşməsinə, könüllülük fəaliyyətinin genişlənməsinə öz töhfələrini verir. Ölkənin ali təhsil müəssisələri arasında ilk dəfə olaraq BDU-da Humanitar məsələlər və gənclər siyasəti şöbəsi yaradılıb. BDU-da tələbələrin elmi potensialının üzə çıxarılması istiqamətində yüksək nailiyyətlər əldə edən Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, müxtəlif tələbə gənclər təşkilatları fəaliyyət göstərir.

Elçin Babayev Zəfər salnaməsini yazan Azərbaycan gənclərinin xoşbəxt olduqlarını bildirib: "Azərbaycan gəncləri qalib ordunun əsgərləri, azad Qarabağda quruculuq işlərində çalışan fədakar insanlardır. Azərbaycan gəncləri Xankəndi-Şuşa yolunda gecə-gündüz keşikdə dayanan qeyrətli oğul və qızlarımız, dövlətimizin bircə qarış torpağı uğrunda göz qırpmadan canı fəda etməyə hazır olan insanlardır".

Milli Məclisin üzvü, iqtisad elmləri üzrə fəlsəfə doktoru Emin Hacıyev ölkə əhalisinin 26 faizini gənclərin təşkil etdiyini və onların bütün strukturlarda fəal təmsil olunduqlarını bildirib. Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin sədri Orduxan Qəhrəmanzadə, İnformasiya və sənəd menecmenti fakültəsinin məzunu, Vətən müharibəsi iştirakçısı Sərxan Veysəlli, Coğrafiya fakültəsinin müəllimi Eltac Cəbiyev, "BDU könüllüləri" təşkilatının sədri Nərmin Heydərova, Biologiya fakültəsinin IV kurs tələbəsi, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin üzvü Elnur İmaməliyev, Hüquq fakültəsinin I kurs tələbəsi, Prezident təqaüdçüsü Nəzrin Sadıqova çıxışlarında Azərbaycan gənclərinin müasir, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətin apardığı gənclər siyasətinin rolundan bəhs ediblər.

Tədbirdə BDU-nun 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub.

Daha sonra tədris göstəricilərinə görə fərqlənən 13, BDU-nun ictimai həyatında fəal iştirak edən 25 tələbəyə təşəkkürnamələr təqdim olunub.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edib.

# BDU-nun TGT sədri "İlin Tələbə Gənclər Təşkilatının sədri" seçilib




***Fevralın 1-də Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə 2 fevral - Gənclər Gününə həsr olunmuş "ReBrend" forumu keçirilib.***

Forumun əsas məqsədi tələbə gənclər təşkilatlarının uzunmüddətli PR strategiyasının müəyyən olunması, inkişaf üçün düzgün planlanma aparılmasına dəstək olmaqdır.

Forum zamanı BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) sədri Ələkbər Həsənov 2022-ci il ərzində ölkədə ictimai və sosial əhəmiyyətli, o cümlədən könüllü fəaliyyətin təşkili və həyata keçirilməsində fəal iştirakına görə "İlin Tələbə Gənclər Təşkilatının sədri" adına layiq görülüb.

BDU-nun Tələbə Gənclər Təşkilatını bu uğur münasibətilə ürəkdən təbrik edirik!

# 2023-cü il Gənclər üçün Prezident mükafatçılarından 2-si BDU məzunudur






***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 11 gəncə 2023-cü il Gənclər üçün Prezident mükafatı verilib.*** Onlardan 2-si - Kamran Əliyev və Günay İmanzadə BDU-nun məzunudur. Kamran Əliyev 2021-ci ildə BDU-nun Hüquq fakültəsini, Günay İmanzadə isə 2017-ci ildə Kimya ixtisası üzrə (ingilis bölməsi) SABAH qruplarını bitirib.

Məzunlarımızla fəxr edirik!

# Oksford Universiteti Nəşriyyatının məlumat bazasından ödənişsiz istifadə imkanı

***BDU-nun Elmi Kitabxanası Universitetin professor-müəllim heyəti və gənc tədqiqatçılarına 2023-cü il fevralın 16-dan martın 31-nə qədər Oksford Universiteti Nəşriyyatının (Oxford University Press) məlumat bazasından ödənişsiz istifadə imkanı təqdim edir.***

Elmi karyerasına yeni başlayan gənc tədqiqatçılar üçün Oksford Universiteti Nəşriyyatının resurslarına giriş maraqlı və faydalı olacaq. Oksford Universiteti Nəşriyyatının nüfuzlu jurnal və kitablarından tədqiqatçılar yalnız oxumaq üçün yararlana bilərlər.

Sınaq müddətində Oksford Universiteti Nəşriyyatı tərəfindən təklif olunan resurslara https://academic.oup.com/journals/pages/early-career-researchers - linki vasitəsilə və ya Elmi Kitabxananın https://elibrary.bsu.edu.az səhifəsində "Tammətnli məlumat bazaları" bölməsindən daxil olmaq mümkündür. Nəşriyyat həmçinin broşürlərdən istifadə imkanı da təklif edir: OxfordUniversityPress_OA Brochure.pdf (oup.com)

# "İlin gənc alimi" müsabiqəsinin nəticələri açıqlanıb

***Fevralın 2-də BDU-da 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin nəticələri açıqlanıb.***



Müsabiqə Komissiyasının qərarına əsasən, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi Lalə Qəhrəmanlı təbiət və texnika elmləri üzrə ən yüksək nəticə göstərərək "İlin gənc alimi" seçilib.

Lalə Qəhrəmanlı İtaliya hökumətinin 2022-2023-cü illər üzrə xaricdə yaşayan İtaliya vətəndaşları və xarici vətəndaşlar üçün elan etdiyi qrant müsabiqəsinin qalibidir. O, hazırda İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun Frascati laboratoriyasında tədqiqat aparır. Lalə Qəhrəmanlı müsabiqənin qalibi kimi diplom və 2 000 manat pul mükafatı ilə təltif edilib.

Eyni zamanda BDU-nun yüksək elmi nəticələr göstərən əməkdaşları - Kimya fakültəsinin Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının (ETL) müdiri Ələkbər Hüseynzadə, Nanoaraşdırmalar ETL-in kiçik elmi işçisi Orxan Güləhmədov, Mexanika-riyaziyyat fakültəsinin doktorantı Təranə Sultanova və Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrasının laborantı Nərminə Mirzəliyevaya təşəkkürnamə və pul mükafatı verilib.

Qeyd edək ki, BDU artıq üç ildir ki, 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə "İlin gənc alimi" müsabiqəsi elan edir. Müsabiqənin məqsədi BDU-nun yaşı 35-ə qədər, il ərzində aktiv fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olan magistrant, doktorant və əməkdaşlarının mükafatlandırılmasıdır.

# Jurnalistika fakültəsinin tələbələri AZƏRTAC-da olublar

***2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) Jurnalistika fakültəsinin tələbələrinin bir qrupu ilə görüş keçirilib.***



Tələbələr əvvəlcə AZƏRTAC-ın yeni binasında yaradılan şəraitlə maraqlanıblar. Gənclər Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştirakını, yerli və xarici mediaya müsahibələrini, Müzəffər Ali Baş Komandanımızın İkinci Qarabağ müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotostendlərlə, həmçinin AZƏRTAC-ın müxtəlif dövrlərdə istifadə etdiyi texniki avadanlıqların nümunələrindən ibarət muzeylə tanış olublar.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev tələbələrlə görüşüb, onları 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib. İdarə Heyətinin sədri görüşdə Prezident İlham Əliyevin gənclərə diqqət və qayğısından söz açıb, dövlətimizin başçısının siyasətinə uyğun olaraq AZƏRTAC-da da bu istiqamətdə görülən işlərdən danışıb. Bildirib ki, hazırda AZƏRTAC-ın əməkdaşlarının böyük əksəriyyəti gənclərdir. Agentliyin İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov tələbələrə AZƏRTAC-ın tarixi və fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirib ki, bir əsrdən artıq yaşı olan agentlik dəyərli jurnalistika ənənələri və təcrübəsinə malikdir. Dünyanın qocaman agentliklərindən biri kimi AZƏRTAC-ın adı dünya müəlliflərinin media ilə bağlı monoqrafiyalarında da əks olunub. Qeyd olunub ki, ölkədə və xarici media üçün agentlik rəsmi xəbərlərin ilk mənbəyi olmaqla yanaşı, eyni zamanda, ictimaiyyət üçün etibarlı informasiya mənbəyidir. Gün ərzində agentliyin xəbər lentində 8 dildə (Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan) 500-dən artıq xəbər yerləşdirilir və ölkənin həyatında baş verən əsas hadisələr barədə məlumatlar xarici medianın xəbər bloklarında da əks olunur.

Görüşdə sosial media, qlobal informasiya məkanı, xəbər yazılışı, jurnalistika ənənələri və digər istiqamətlər barədə tələbələrlə müzakirələr aparılıb.

# BDU-nun 14 komandası "TEKNOFEST-2023"ün növbəti mərhələsinə vəsiqə qazanıb

***BDU "TEKNOFEST-2023" festivalında fəal iştirak edəcək.*** BDU-nun festivala qatılacaq 14 komandasının müxtəlif kateqoriyalar üzrə təqdim etdiyi 23 layihə yarışmanın ilk mərhələsini keçərək növbəti mərhələyə vəsiqə qazanıb.

Qeyd edək ki, "TEKNOFEST-2023" festivalı 16-19 mart tarixlərində İzmir, 27 aprel - 1 may tarixlərində İstanbul, 30 avqust - 3 sentyabr tarixlərində isə Ankara şəhərində keçiriləcək.

İlk dəfə Türkiyə sərhədlərindən kənarda "İki Dövlət, Tək Millət, Tək Festival" şüarı ilə 2022-ci ilin may ayında Azərbaycanda təşkil olunan "TEKNOFEST Azərbaycan" festivalında BDU 14 layihə ilə təmsil olunub. BDU-nu təmsil edən komandalar Aqrar texnologiyalar kateqoriyası üzrə II, Sosial yönümlü texnologiyalar kateqoriyası üzrə isə III yerə layiq görülüb.

# "Heydər Əliyev və gənclər siyasəti" mövzusunda tədbir

***Fevralın 20-də Kimya fakültəsində "Heydər Əliyev və gənclər siyasəti" mövzusunda tədbir keçirilib.***

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov bildirib ki, Ulu öndər Heydər Əliyev xalqımızı mürəkkəb tarixi-siyasi sınaqlardan uğurla çıxarmış və onu müstəqilliyə qovuşdurmuş qüdrətli liderdir. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin həyata keçirilməsi Ümummilli liderin adı ilə bağlıdır. Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsi Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. Bu ideologiyadan bəhrələnən gənclər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qəhrəmanlıq dastanı yazdılar.



Daha sonra Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müəllimi Ofeliya Balayeva, fakültənin Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli, I kurs tələbəsi Nailə Tağıyeva çıxışlarında müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin zəngin siyasi irsindən, dövlət gənclər siyasətinin formalaşmasındakı misilsiz xidmətlərindən, gənclərə göstərdiyi xüsusi diqqət və qayğıdan, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən danışıblar. Tədbirin sonunda Ulu öndər Heydər Əliyevin gənclər siyasətini əks etdirən videoçarx nümayiş etdirilib.

# BDU Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu ilə tərəfdaşlıq müqaviləsi imzalayıb

***Fevralın 24-də BDU ilə Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun rektoru Eldor Şermanov imzalayıb.***

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev Azərbaycan və Özbəkistan arasında qardaşlıq münasibətlərinin ən yüksək səviyyədə olduğunu bildirib. Qeyd edib ki, Mərkəzi Asiyanın lider dövlətinə çevrilən Özbəkistan Azərbaycanın haqq işini həmişə dəstəkləyib. Rektor türkdilli dövlətlər arasında münasibətlərin daha da dərinləşməsində elm-təhsil əlaqələrinin önəmli rola malik olduğunu diqqətə çatdırıb.



Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun rektoru Eldor Şermanov da imzalanan müqavilənin elm, təhsil və mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əminliyini bildirib.

Müqavilədə BDU ilə Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasında akademik, inzibati kadrlar, tələbə, magistrant, doktorant və tədqiqatçıların, elmi açıq informasiya və nəşrlərin mübadiləsi, ortaq tədqiqatlar, tədris fəaliyyəti, təlimlərin təşkili əksini tapıb.

# BDU-nun Qazax filialında Xocalı soyqırımının ildönümü qeyd olunub

***Fevralın 24-də BDU-nun Qazax filialında Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə filialın foyesində Xocalı soyqırımı ilə bağlı foto və kitablardan ibarət guşə ilə tanış olublar. Soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Xocalı faciəsinə həsr olunmuş slayd nümayiş etdirilib.

BDU-nun Qazax filialının direktoru Arif Rüstəmov XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımının tarixə ən dəhşətli səhifələrdən biri kimi daxil olduğunu bildirib. Qeyd edib ki, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı Xocalıya divan tutub. Lakin həmin vaxt bu dəhşətli soyqırım dünya ictimaiyyətinin diqqətinə çatdırılmayıb, ona hüquqi-siyasi qiymət verilməyib. Qanlı Yanvar hadisələri zamanı olduğu kimi, bu hadisənin də əsl mahiyyəti Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra açılıb və dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Milli Məclisin 1994-cü ilin fevral ayında keçirilən iclasında Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilib.

Filialın İctimai fənlər kafedrasının baş müəllimləri Ülviyyə Bayramova "Xocalı faciəsi qan yaddaşımızdır", Mübariz Süleymanov "Xocalı faciəsi Azərbaycan xalqına qarşı törədilmiş növbəti terror aktıdır", mətbuat xidmətinin rəhbəri Elçin İsmayıl "Xocalı faciəsi dünya mətbuatında", Tarix ixtisasının III kurs tələbəsi Mirruhi Müseyibli "Əsrin faciəsi" mövzularında çıxışlar ediblər. Çıxışlarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə ilə Xocalı şəhidlərinin də qisasının alındığı və artıq 3 ildir ki, anım mərasimini qalib xalq kimi qeyd etdiyimiz vurğulanıb.

# Elmi seminar: "Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri"

***Fevralın 24-də Tarix fakültəsində Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının "Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri" mövzusunda elmi seminarı keçirilib.*** Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova bildirib ki, 1992-ci il fevralın 26-da 366-cı alayın erməni hərbçiləri tərəfindən xüsusi amansızlıq və ağlasığmaz vəhşiliklə 7 min əhalisi olan Xocalı şəhərində həyata keçirilmiş genosid aktı təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Bu baxımdan Xocalı soyqırımı XX əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Boran Əziz isə "Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri" mövzusunda məruzəsində qeyd edib ki, tarix boyu türklərə qarşı düşmənçilik siyasəti yeridən Ermənistan dövlətinin bu dəhşətli hadisəni törətməkdə əsas məqsədi Xocalını yer üzündən birdəfəlik silmək idi. Çünki Xocalı həm də Qarabağın guya ermənilərə aid olması haqqında yalanları ifşa edən tutarlı tarixi fakt idi. Xocalının kromlex, dolmen, siklop, kurqan və digər abidələri, insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi-mədəniyyət nümunələri tarixə Xocalı-Gədəbəy mədəniyyəti adı ilə daxil olub. İşğaldan sonra bütün bu maddi mədəniyyət abidələrinin, dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının məhv edilməsi erməni vandalizminin bariz nümunəsi, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır. Xocalı soyqırımı zamanı 613 nəfər Xocalı sakini (onlardan 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca) öldürülüb, 1000 nəfər aldığı güllə yarasından əlil olub, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150-sinin taleyi hələ də məlum deyil. Dəhşətli gecədən sonra dörd gün ərzində Xocalıda qətlə yetirilmiş azərbaycanlıların meyitləri Ağdam məscidinə gətirilib, onlardan 181 meyit məhkəmə-tibbi ekspertizasından keçirilib. Meyitlərin və sağ qalmış insanların üzərində təhqiredici hərəkətlər həyata keçirmiş ermənilər insanlığa sığmayan vəhşiliklər törədiblər. Bütün bunlar Ermənistan tərəfindən Cenevrə konvensiyasının protokollarının pozulduğunu və Xocalı cinayətlərinin müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir.

Elmi seminarda 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfərlə Azərbaycan dövlətinin tarixi ədaləti bərpa etdiyi, bütün şəhidlərimizin, Xocalı soyqırımı qurbanları da daxil olmaqla münaqişənin günahsız qurbanlarının qisasının alındığı diqqətə çatdırılıb.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Xocalı qurbanları anılıb

***Fevralın 26-da BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Xocalı soyqırımının 31-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimiz və soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollecin direktoru Səhər Orucova Xocalı soyqırımının Azərbaycan tarixinin ən qanlı səhifələrindən olduğunu, bu faciənin unudulmaması üçün gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü deyib. Qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl iş aparılır. Tədbirdə Xocalı soyqırımı ilə bağlı videoçarxlar, səhnəciklər göstərilib, şeirlər səsləndirilib.

# BDU kollektivi "Ana harayı" abidəsini ziyarət edib



***Fevralın 26-da BDU-nun kollektivi və tələbələri Xocalı soyqırımının 31-ci ildönümü münasibətilə "Ana harayı" abidəsini ziyarət edib.***

Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış abidənin önünə qərənfillər düzülüb, faciə qurbanları dərin ehtiramla yad olunub.

# Xocalı soyqırımının hüquqi aspektləri təhlil olunub

***Fevralın 23-də Hüquq fakültəsində Milli Məclisin deputatı, hüquq üzrə elmlər doktoru Nizami Səfərovun iştirakı ilə Xocalı soyqırımının hüquqi aspektlərinə həsr olunmuş tədbir keçirilib.*** Tədbirin məqsədi Xocalı soyqırımına beynəlxalq və cinayət-hüquqi aspektdən yanaşmanın təqdim olunması, bu soyqırım aktını törədənlərin cinayət-hüquqi məsuliyyətinə dair beynəlxalq və milli hüquq normalarının diskussiya şəklində təhlilinin aparılmasıdır.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev Xocalı soyqırımı ilə bağlı tarixi faktlara toxunub, öz mövqeyini beynəlxalq mənbələrə istinadən əsaslandırıb.



Milli Məclisin deputatı, hüquq üzrə elmlər doktoru Nizami Səfərov soyqırım cinayətinin mahiyyəti və növləri, soyqırıma görə cinayət məsuliyyətinin həm beynəlxalq, həm də milli-hüquqi aspektdən əsasları barədə ətraflı məlumat verib.

Fakültənin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, professor Şəhla Səmədova soyqırım cinayətinin elementləri və bu əməllərə görə cinayət məsuliyyətinə cəlb etmənin praktiki tərəflərini Xocalı soyqırımı ilə əlaqələndirərək şərh edib, bu sahədə təklif və tövsiyələrini verib.

Daha sonra Nizami Səfərov fakültə əməkdaşları və tələbələrin suallarını cavablandırıb. Tədbirin sonunda Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının Xocalı soyqırımına həsr olunmuş esse müsabiqəsinin qalibi, II kurs tələbəsi Nigar İsgəndərovaya sertifikat təqdim olunub.

# "Xocalı soyqırımı - XX əsrin faciəsi" adlı foto və kitab sərgisi açılıb




***Fevralın 23-də BDU-nun Elmi Kitabxanasının təşkilatçılığı ilə "Xocalı soyqırımı - XX əsrin faciəsi" adlı foto və kitab sərgisi açılıb.***

Sərgidə Xocalı soyqırımından bəhs edən, Azərbaycan, ingilis və rus dillərində 50-dək kitab nümayiş olunur. Bura "Qarabağ düyünü", "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi", "Vətən harayı", "Erməni terroru", "Xocalı soyqırımı" kimi kitablar daxildir.

Sərgidə həmçinin Xocalı faciəsinin dəhşətlərini əks etdirən 30-dək tarixi fotoşəkil də təqdim olunur.

Sərgi həftənin sonunadək ziyarətçilərin üzünə açıq olacaq.

# "Gənc istedadlar" liseyində "Unudulmayan acı-Xocalı" adlı tədbir

***Fevralın 23-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Unudulmayan acı-Xocalı" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Liseyin direktoru Arif Bağırov ermənilərin tarix boyu azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasəti barədə şagirdlərə məlumat verib, Xocalı faciəsinin bu siyasətin ən dəhşətli səhifəsi olduğunu vurğulayıb. Liseyin müəllimləri Gülşən Əliyeva, Şamama Quliyeva, şəhid qızı Salatın Əhmədova Xocalı faciəsinin dəhşətlərinə dair faktları nəzərə çatdırıb, soyqırımın dünya dövlətləri tərəfindən tanınması istiqamətində görülən işlər haqqında danışıblar. Musiqi müəllimi Kamalə Əliyevanın təqdimatında şagirdlər Xocalı faciəsinə dair mahnı



# "Xocalı - insanlığa qarşı cinayət" filminin təqdimatı olub

***Fevralın 26-da Tələbə Həmkarlar İttifaqı Komitəsi və "MH Films" tərəfindən ərsəyə gətirilən "Xocalı - insanlığa qarşı cinayət" sənədli filminin "Park Cinema"da təqdimat mərasimi keçirilib.***

Təqdimat mərasimdə BDU-nun rektoru Elçin Babayev, Milli Məclisin deputatı Naqif Həmzəyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, Azərbaycanda Yaşayan Axıska Türklərinin "Vətən" İctimai Birliyinin sədri, Dünya Axıska Türkləri Birliyinin təmsilçisi Xalid Xəlilov, Universitetin professor-müəllim heyəti və tələbələr iştirak edib.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev filmin Xocalı cinayətlərinin beynəlxalq arenada tanıdılması yolunda atılmış addımlardan biri olduğunu vurğulayıb.

Milli Məclisin deputatı Naqif Mirzəyev çıxışında ermənilərin təcavüzkarlıq siyasəti, Xocalı faciəsinin dəhşətlərindən söhbət açıb, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində reallaşdırılan aksiyaların böyük əhəmiyyətini diqqətə çatdırıb. Filmin rejissoru, BDU THİK sədri Hacıbaba Mustafayev "Xocalı - insanlığa qarşı cinayət"in XX əsrin ən dəhşətli soyqırımı barədə həqiqətləri dünyaya çatdıracağını və iki beynəlxalq film festivalında nümayiş etdiriləcəyini deyib.

# Biologiya fakültəsində Xocalı qurbanları yad edilib

***Fevralın 24-də Biologiya fakültəsində "Xocalı faciəsini unutmuruq" adlı tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin və soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Fakültənin dekanı Afət Məmmədova Xocalı faciəsinin dəhşətləri, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti barədə məlumat verib, Ümummilli lider Heydər Əliyevin soyqırıma siyasi qiymət verilməsi ilə bağlı xidmətləri, Prezident İlham Əliyevin xalqımız və bəşəriyyət əleyhinə bu cinayətin dünya miqyasında tanıdılması istiqamətində apardığı uğurlu siyasətdən danışıb. Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayev THİK tərəfindən "Xocalı - insanlığa qarşı cinayət" adlı sənədli filmin hazırlandığını bildirib və filmdən fraqmentləri təqdim edib. Tarixçi alim, dosent Boran Əziz, Biologiya fakültəsinin professoru Canbaxış Nəcəfov Xocalı soyqırımının dəhşətlərini tarixi faktlarla iştirakçıların nəzərinə çatdırıblar. Daha sonra fakültənin tələbələri - Aydan Qasımlı, Nərmin Qarayeva və Kəmaləddin Hüseynov Xocalı faciəsi ilə bağlı videoçarx təqdim edib, şeirlər səsləndiriblər.

# BDU-da Xocalı soyqırımına həsr edilmiş xüsusi dərs

***Fevralın 24-də İnformasiya və sənəd menecmenti fakültəsində Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş xüsusi dərs təşkil olunub. Əvvəlcə Xocalı soyqırımı zamanı və Vətənimizin azadlığı uğrunda şəhid olan bütün soydaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib.***

Xüsusi dərs Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslanın mühazirəsi ilə davam edib. Knyaz Aslan ermənilərin tarixən xalqımıza qarşı apardığı düşmənçilik siyasətindən, zaman-zaman törətdikləri qanlı cinayətlərdən bəhs edib. Mühazirədə Ermənistanın işğalçılıq siyasəti, Xocalı soyqırımının başvermə səbəbləri, soyqırım qurbanları barədə tələbələrə dolğun informasiya verilib. Natiq Xocalı soyqırımına hüquqi-siyasi qiymətin xalqımızın Ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra verildiyini xüsusi vurğulayıb. Həmçinin soyqırımın dünyada tanıdılmasında Heydər Əliyev Fondunun fəaliyyətinin, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyasının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Xocalı soyqırımının baş verdiyi dövrdə jurnalist kimi fəaliyyət göstərən Knyaz Aslan müxtəlif mətbuat orqanlarında bu mövzuda yazdığı məqalələrdən sitat gətirib, eyni zamanda faciə günlərində gündəliyinə etdiyi tarixi qeydləri oxuyub. Knyaz Aslan qeyd edib ki, Ulu öndərimiz Heydər Əliyevin ləyaqətli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər nəticəsində bütün şəhidlərimizin, o cümlədən Xocalı soyqırımı qurbanlarının qisası alınıb, torpaqlarımızın ərazi bütövlüyü bərpa edilib.

Sonra İnformasiya və sənəd menecmenti fakültəsinin tələbəsi - Xocalı sakini Vəfa Usubova öz təəssüratlarını bölüşüb. Bildirib ki, faciə zamanı nənəsi, əmisi və bir çox yaxın qohumu vəhşicəsinə qətlə yetirilib, atası isə girov götürülüb. Ölkəmizin qazandığı tarixi qələbənin bütün xalqımız kimi Xocalı sakinlərində də qürur və gələcəyə inam hissi yaratdığını vurğulayan Vəfa Usubova ən böyük arzusunun tezliklə doğma Xocalıya dönmək olduğunu da ifadə edib.

# BDU və "LU-MUN HOLDİNG" arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Fevralın 6-da BDU və "LU-MUN HOLDİNG" MMC arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və "LU-MUN HOLDİNG" MMC-nin İdarə Heyətinin sədri Rüfət Tabasaranskiy imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, elm və təhsilin sənaye və bizneslə əlaqələndirilməsi, dövlət-özəl tərəfdaşlığı, alınmış elmi nəticələrin kommersiyalaşdırılması BDU-nun əsas hədəflərindəndir. "Tədqiqat universiteti" statusu almağa hazırlaşan, Azərbaycanın ilk və ən böyük universiteti olan BDU-nun ölkənin müasir və innovativ şirkətlərindən olan "LU-MUN HOLDİNG"lə müqavilə imzalaması uğurlu nəticələrə səbəb olacaq: "Şirkətin fəaliyyət sferası BDU-da tədris



olunan biokimya, biotexnologiya, biomühəndislik, genetika kimi ixtisaslarla kəsişir. Bu ilin sonunda BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin binası da istifadəyə veriləcək. Bu, birgə elmi tədqiqatların sürətini daha da artıracaq".

"LU-MUN HOLDİNG" MMC-nin İdarə Heyətinin sədri Rüfət Tabasaranskiy isə BDU ilə birgə əməkdaşlığın həm elmi, həm praktik nəticələr verəcəyini qeyd edib. Bildirib ki, rəhbərlik etdiyi şirkət ölkədə ərzaq təhlükəsizliyi, Azərbaycanda kənd təsərrüfatı və qida istehsalı sahələrində irimiqyaslı layihələr həyata keçirən investisiya şirkətidir. Holdinqin əsas missiyası Azərbaycanın milli resurslarını dirçəltməkdir.

Qeyd edək ki, BDU və "LU-MUN HOLDİNG" arasında müqavilənin məqsədi elmi-texniki fəaliyyət istiqamətləri üzrə əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsindən ibarətdir. Müqaviləyə əsasən, biologiya, bioetexnologiyalar, biotibb, biokimya, akvakultura, histologiya, genetika və digər qarşılıqlı maraq doğuran elm sahələrində birgə layihə və elmi-tədqiqat işlərinin aparılması, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların və təlimlərin təşkili, əqli mülkiyyət hüquqları qorunmaqla elmi informasiya və nəşrlərin mübadiləsi, elmi əsərlərin birgə nəşr edilməsi, müştərək layihə və proqramların həyata keçirilməsi nəzərdə tutulur.

# BDU Elmi Şurasının növbəti iclası



***Fevralın 14-də BDU Elmi Şurasının növbəti iclası keçirilib.***

İclasda 2022/2023-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub. BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov bildirib ki, qış imtahan sessiyasında ümumilikdə 23 697 təhsilalan iştirak edib. Bakalavriatura səviyyəsi üzrə 19253, magistratura səviyyəsi üzrə 1932, Qazax filialı üzrə 1690, SABAH qrupları üzrə 822 nəfər imtahan verib. Tələbələrin müvəffəqiyyət göstəricisi 86 faiz, keyfiyyət göstəricisi 44 faiz təşkil edib. İmtahan sessiyası ərzində Apelyasiya Komissiyasına və "Qaynar xətt"ə daxil olan müraciətlər operativ qaydada araşdırılaraq cavablandırılıb.

İclasda daha sonra cari məsələlərə baxılıb.

# BDU beynəlxalq tədqiqatlar şəbəkəsinə qoşulur

***BDU-nun rektoru Elçin Babayev Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmiş BMT-nin Kosmosdan Dinc Məqsədlərlə İstifadə üzrə Komitəsinin Elm və Texnika Altkomitəsinin (The Scientific and Technical Subcommittee of the United Nations Committee on the Peaceful Uses of Outer Space (COPUOS)) 60-cı sessiyasının işində iştirak edib. Rektor sessiya çərçivəsində Beynəlxalq Kosmik Hava Təşəbbüsü (International Space Weather Initiative (ISWI)) üzrə proqramın Rəhbər Komitəsinin yığıncağında da iştirak edib.***

Tədbirlərin məqsədlərindən biri də müxtəlif ölkələrdə uyğun sahədə elmi-tədqiqat cihaz və alətlərinin yerləşdirilməsi, kadr hazırlığı üzrə birgə beynəlxalq səylərin davam etdirilməsidir. BDU-nun rektoru Azərbaycanda adıçəkilən sahələr üzrə elmi-tədqiqat işlərinin aparılması və kadr hazırlığının həyata keçirilməsi istiqamətində potensial əməkdaşlıq imkanları barədə "Azərbaycanda kosmik hava tədqiqatları" adlı, həmçinin 2022-ci il 31 oktyabr – 4 noyabr tarixlərində BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və BDU-nun birgə təşkilatçılığı ilə Bakı şəhərində keçirilmiş "United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere" beynəlxalq tədbirinin nəticələrinə və tövsiyələrinə dair məruzələrlə çıxış edib. Qeyd olunmalıdır ki, bu birgə tədbir haqqında altı səhifəlik hesabat BMT Baş Assambleyasına təqdim olunub və 2022-ci il 22 noyabr tarixində yayılıb.

Rektor səfər zamanı Beynəlxalq Nəzəri Fizika Mərkəzi (The Abdus Salam International Centre for Theoretical Physics (İCTP), İtaly) ilə əlaqələr və gənc kadr hazırlığı məsələləri, həmçinin BDU-da yaradılmış Mükəmməllik Mərkəzinin Astrokosmik və atmosfer tədqiqatları laboratiyasında müxtəlif istiqamətli elmi və tədris təyinatlı cihazların yerləşdirilməsi və müvafiq tədqiqat şəbəkələrinə qoşulma haqqında müzakirələr də aparıb. 2023-cü ildə Bakıda keçiriləcək İAC-2023 Beynəlxalq Astronavtika Konqresi haqqında suallar da cavablandırılıb.

# BDU ilə Ali Məhkəmə arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb

***Fevralın 22-də BDU ilə Ali Məhkəmə arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Anlaşma memorandumunu BDU-nun rektoru Elçin Babayev və Ali Məhkəmənin sədri Ramiz Rzayev imzalayıblar.

İmzalanma mərasimində çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev bildirib ki, memorandum hər iki qurum üçün faydalı olacaq: "BDU Azərbaycanın ən qocaman universitetidir. Universitetin məzunları sırasında Ulu öndər Heydər Əliyev də daxil olmaqla, ölkəmizin görkəmli alim və dövlət xadimləri, məşhur hüquqşünasları olub. Əvvəllər olduğu kimi, bu gün də BDU-nun məzunları dövlət orqanlarında və özəl sahələrdə aparıcı vəzifələrdə çalışırlar. Ali Məhkəmənin hakim və əməkdaşlarının əksəriyyəti BDU-nun məzunlarıdır. BDU ilə Ali Məhkəmə arasında uzun illərdir əməkdaşlıq əlaqələri mövcuddur. Hər il BDU-da Hüquqşünaslıq ixtisası üzrə təhsil alan xeyli sayda tələbə Ali Məhkəmədə və digər məhkəmələrdə təcrübə proqramlarında iştirak edir. Bu sənədi imzalamaqda məqsədimiz mövcud əməkdaşlıq münasibətlərini daha da genişləndirmək və inkişaf etdirməkdir".

BDU-nun rektoru Elçin Babayev isə son illər məhkəmə-hüquq sistemində həyata keçirilən mütərəqqi dəyişiklikləri, bu sistemin formalaşmasında Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xidmətlərini diqqətə çatdırıb. Rektor Ali



Məhkəmənin hakimləri və əməkdaşlarını 100 illik yubiley münasibətilə təbrik edib və onlara peşəkar fəaliyyətlərində uğurlar arzulayıb. Rektor anlaşma memorandumunun BDU tələbələrinin bilik və təcrübələrinin artırılmasına böyük töhfə verəcəyini vurğulayıb. Memoranduma əsasən, BDU-da Hüquqşünaslıq ixtisası üzrə təhsilalanların Ali Məhkəmə Aparatının struktur bölmələrində təcrübə keçməsi, birgə respublika əhəmiyyətli və beynəlxalq elmi konfrans, dəyirmi masa, seminar, təlim kursları, görüş və simulyasiyaların (müsabiqələrin) keçirilməsi, ortaq dərs vəsaitləri, elmi məqalələr, tədris-metodiki vəsait və nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətində daha çox rast gəlinən problemlərin həlli məqsədilə elmi-praktik araşdırmaların aparılması nəzərdə tutulur.

# BDU Elmi Kitabxanasında Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi



***BDU-nun Elmi Kitabxanasında 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi təşkil olunub.*** Sərgidə müxtəlif dillərdən bəhs edən 50-yə yaxın kitab, dərslik və dərs vəsaiti nümayiş etdirilir, görkəmli şəxslərin ana dilimiz haqqında fikirləri, dilçi alimlərimizin Azərbaycan dilinin tarixi, daxili qanunauyğunluqları, poetik üslubu, əsrlərdən günümüzə qədər gəlib çatan zənginliyi və dərinliyindən xəbər verən dəyərli nəşrləri yer alır.

Sərgidə Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili statusuna yüksəldilməsi, dilimizin xarici təsirlərə məruz qalmadan qorunub saxlanılmasında əvəzsiz rolu xüsusi işıqlandırılır. Nizami Xudiyevin "Heydər Əliyev və Azərbaycan dili", Salatın Əhmədovanın "Heydər Əliyevin dil siyasəti" adlı kitabları oxucular tərəfindən xüsusi maraqla qarşılanır.

Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgidə türk, rus, ingilis, alman, fransız, yapon, çin, ərəb, qədim roma dilləri, həmçinin Qafqazda yaşayan tatların dilinə aid bir çox nəşrlər də yer alıb.

# BDU-da Avstriyanın Sosial İnnovasiyalar Mərkəzinin əməkdaşları ilə görüş

***Fevralın 23-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində Avstriyanın Sosial İnnovasiyalar Mərkəzinin Tədqiqat siyasəti və inkişaf şöbəsinin əməkdaşları Martin Felix Gajdusek və İnna Petrenko ilə görüş keçirilib.***

Görüşün məqsədi BDU-da tədqiqat və innovasiya sahəsində aparılan işlərlə tanışlıq, Universitet alimlərinin Avropa Birliyinin (AB) tədqiqat proqramlarında iştirak imkanlarının qiymətləndirilməsi olub. Görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları Mustafa Muradov, Günel Əliyeva və ICESCO-nun ixtisaslaşmış Biotibbi materiallar kafedrasının müdiri Ülviyyə Həsənova iştirak ediblər. Mustafa Muradov Mükəmməllik Mərkəzində aparılan tədqiqatlar, innovativ layihələr haqqında geniş məlumat verib. Görüşdə Mərkəzin laboratoriyalarının AB ölkələri ilə əməkdaşlığı və gələcək perspektivləri geniş müzakirə olunub. Qonaqlar tərəfindən laboratoriya əməkdaşlarının Elm və Texnologiya üzrə Avropa Əməkdaşlığı (COST - European Cooperation in Science and Technology) layihələrində iştirakı yüksək qiymətləndirilib.

Biotibbi materiallar kafedrasının müdiri Ülviyyə Həsənova yeni yaradılan kafedra haqqında və planlaşdırılan tədqiqat istiqamətləri barədə məlumat verib. Eyni zamanda 2022-ci ildə BDU-nun qalib olduğu Erasmus+Jean Monnet Module, hazırda üzərində işlənilən Erasmus+CBHE layihələri haqqında müzakirələr aparılıb. Müzakirələr zamanı Avropadan olan tərəfdaşlarla birgə layihələrin hazırlanması və yeni ixtisasların yaradılması məsələlərinə geniş yer verilib. Görüşdə həmçinin BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdlərinin "Sabahın alimləri" XII Respublika müsabiqəsində qazandığı uğurlar diqqətə çatdırılıb.

# "Cənubi Azərbaycanda ana dilimizin problemləri" mövzusunda müzakirələr aparılıb

***Filologiya fakültəsində 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Cənubi Azərbaycanda ana dilimizin problemləri" mövzusunda dəyirmi masa keçirilib.***

BDU-nun rektoru Elçin Babayev əlamətdar gün münasibətilə iştirakçıları təbrik edərək, müasir dünyanın dil mənzərəsindən, Azərbaycan dilinin keçdiyi inkişaf yolundan, regional statusundan, milli dil və dövlət dili kimi keşməkeşli taleyindən, dilimizin xarici təsirlərə qarşı müqavimət dərəcəsinin kifayət qədər güclü olmasından söz açıb, dövlət müstəqilliyinin bərpasından sonra Ulu öndər Heydər Əliyev və onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən dil quruculuğundan bəhs edib. Bildirib ki, Azərbaycan dili türk dilləri ailəsində özünəməxsus yeri, dərin kökləri, böyük ənənəsi olan çox zəngin bir dildir. Dünyanın qədim tarixə malik dillərindən olan Azərbaycan dili minillərin sərt sınaqlarından keçərək xalqımızın ən böyük milli dəyəri, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, müstəqilliyimizin başlıca rəmzlərindən birinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışına toxunan rektor onu da vurğulayıb ki, ana dilimizə göstərilən dövlət qayğısının miqyası artıq ölkə sərhədlərini aşıb. Azərbaycan Prezidenti təkcə ölkəmizdə deyil, dünyada yaşayan azərbaycanlıların ana dili məsələsini diqqət mərkəzində saxlayır və bu barədəki narahatlıqlarını çıxışlarında tez-tez bəyan edir.

BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov Cənubi Azərbaycanda dil siyasəti, xalq danışıq dili, ədəbi dil və norma məsələləri haqqında ətraflı məlumat verib, ötən yüzillikdə milli düşüncəli ziyalıların ana dilimizin təbliği və öyrənilməsinə verdikləri töhfələrin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Məruzəçi bildirib ki, İranda əsrlər boyunca Azərbaycan dili dövlət tərəfindən mühafizə olunmasa da, ana dilimizdə mükəmməl klassik əsərlər yaranıb. Ona görə də Cənubi Azərbaycanda ana dilimizin hər hansı şəkildə qadağan olunması onun inkişafını ləngidə bilər, ancaq heç cür dayandıra bilməz.

Türkologiya kafedrasının professoru Məhərrəm Məmmədlinin "Güney Azərbaycan: ədəbi dil, koyne dialekt, yoxsa hibrid dil" adlı məruzəsində Azərbaycan ədəbi dilinin cənub qolu ətrafında gedən müzakirələrdən söz açılıb.

Tədbirin moderatoru - Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Beynəlxalq Ana Dili Gününün tarixi əhəmiyyətindən, dünya dillərinin müasir vəziyyətindən, inkişaf etmiş ölkələrin və beynəlxalq təşkilatların həyata keçirdikləri dil siyasətindən, qloballaşmanın milli dillərə təsirindən, Azərbaycan dilinin ünsiyyət coğrafiyasından, o cümlədən cənubi azərbaycanlıların dil problemindən danışıb.

# 21 fevral - Beynəlxalq Ana Dili Günüdür

*"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır.*
*Şəxsən mən ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm"*

***Ümummilli lider Heydər Əliyev***

***Fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.***

1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə apararaq öldürülən 4 tələbənin xatirəsinə ehtiram olaraq elan olunub. Beynəlxalq Ana Dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.

Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması dilimizin gözəl bilicisi, Ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1969-cu ildə qoyulub: Heydər Əliyev həmin il indiki Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə də yol açıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə olub.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən, avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis edilib. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. Bu sənəd Ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir.

Hazırda bu ənənələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dediyi kimi, "Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir".

## BDU-nun magistrantı Nyu-York Buffalo Universitetində doktorantura proqramı üzrə təhsil alacaq

Biofizika və biokimya kafedrasının Biokimya ixtisası üzrə əcnəbi magistrantı Adeoke Olatunbosun Nyu-York Buffalo Universitetinin nəzdində - Jacobs Tibb və Biotibbi Elmlər Məktəbində Biotibbi elmlər ixtisası üzrə tam təqaüdlü (dövlət sifarişli) doktaranturaya qəbul olub. Adeoke Olatunbosun magistratura təhsili müddətində yüksək göstəriciləri ilə fərqlənib. Təhsil müddətində biologiya üzrə fəlsəfə doktoru Nigar Hüseynovanın rəhbərliyi altında "Nanohissəciklərin fotosintetik piqmentlərin sintez prosesinə təsirinin tədqiqi" adlı dissertasiya işi ilə bağlı tədqiqatlar aparıb

# Su çərşənbəsi - dirilik, sağlamlıq çərşənbəsi

***Novruz xalqımızın milli-mənəvi dəyərlərinin ən qədim və zəngin tarixə malik bayramlarından biridir. Novruz adətləri bu gün də ilkin mühafizəkarlığını qoruyub saxlayır. Novruz çərşənbələrinin hərəsinin özünəməxsus mərasimləri var. Mərasimlərdə xalqımızın dünya və kainat haqqında ilkin təsəvvürləri öz əksini tapır. Bu mərasimlərin keçirilməsi və bayrama hazırlıqlar Novruzun əsas ünsürü olan Su çərşənbəsi ilə başlayır.***



Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə Su çərşənbəsi ilk çərşənbə kimi qeyd edilir. Xalq arasında o, "Əvvəl çərşənbə", "Əzəli çərşənbə", "Gözəl çərşənbə", "Sular Novruzu", "Gül çərşənbə", "Sel çərşənbə", "Zəmzəm çərşənbə", "Çilli beçə çərşənbə" kimi də tanınır. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti ifadə olunur. Su sağlamlıq, paklıq, tale göstərmə, müqəddəslik, dirilik, ölməzlik, xoşbəxtlik gətirən bir inam rəmzi kimi çıxış edir.

Arzularını, gördüyü yuxuları suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və s. su ilə bağlı ayinlərdəndir. İnanclara görə, sübh tezdən bulaqdan götürülən su min bir dərdin dərmanıdır. Su çərşənbəsində baharın ilk suyundan gətirilərdi. Su sübh tezdən götürülərdi ki, insan səsi eşitməsin. Əski inanclara görə, çərşənbə günü bütün dərdlərin dərmanı olan çərşənbə suyu dalınca gedərlərmiş. Amma bu işi hər adama tapşırmazdılar. Həmin su dalınca gümüş kuzələrlə dan yeri sökülənə kimi valideynlərin ilki sayılan, 15-16 yaşlı subay qızlar gedər, üç və ya yeddi bulaqdan su götürər, dinməz-söyləməz evə gətirib qablara boşaldana kimi heç kimlə danışmaz, yerə baxarlarmış. Məhz ona görə də, bu "lal su" adlanarmış. Bu ayini icra edən qızlar yolda tanış bir adama rast gəlsəydilər, üzlərinə su çiləyər, onların bu yolla bulaqdan "lal su" gətirdiyini xəbər verərdilər. Bəzən onları ya nişanlıları, ya da qohumları müşahidə edərdilər ki, suyun "müqəddəsliy"inə xələl gəlməsin. Tatarların Narduqan (Gündoğan) bayramında da bu mərasim keçirilir, belə ki, bir oğlanla bir qız arxalarına baxmadan, dinməzcə bulaqdan fala baxmaq üçün su gətirirlər.

Dəyirman arxına bax!<br>
Su gəlir, çarxına bax.<br>
Ay çərşənbə, xoş gəldin!<br>
Qızlarda axına bax!

Dədə-babalarımız inanıblar ki, bu çərşənbədə sellər aşıb-daşır, bütün azar-bezar qar ilə bərabər yuyulub gedir. İnsanlar suyun üzərindən adlamaqla xəstəliklərdən qurtulacağına inanmışlar.

İnanca görə, axar suyun qarşısı kəsilməməlidir. Suyun qabağını kəsəni Tanrı cəzalandırar. Babalarımız suyu canlı varlıq kimi dəyərləndirmişlər. Folklor nümunələrimizdə su kultundan istifadə buna bir sübutdur. Qazan xanın çay ilə söhbəti bunun bariz nümunəsidir. Ona görə də ilk çərşənbə "Axar sular Novruzu" və ya "Sular toyu" da adlanmışdır. Suyu müqəddəs sayan xalqımız "Su bulandıranı el utandırar", "Suya tüpürməzlər", "Suya söyməzlər" və bu kimi inancları, "Su haqqı", "Suyun sovulmasın", "And olsun axar suya", "Ömrün su qədər uzun olsun" və bu kimi andları qoşmuşlar. Səfərə çıxanın arxasınca su atıb "Yolun aydın olsun!" deyirlər ki, Tanrı köməyi olsun.

Suyun müqəddəsliyi qədim türk miflərindən qaynaqlanır. Qədim miflərə görə, suyun yiyəsi var. El arasında "Suyun anası", "Suyun yiyəsi", "Hovuzun anası" adlanan ifadələrə də rast gəlinir. Su elə müqəddəsdir ki, Axır çərşənbədə çaylar dayanır, ağaclar baş əyib alnını suya söykəyir.

Suyun "tale göstərmə" inancına görə əcdadlarımız "Tas falı" ("Qızlar desin", "Çərşənbə deyişməsi", "Kuzə falı", "Dilək falı" və s.) deyilən fal-açma ilə həddi-buluğa çatmış qızların gələcəkdəki talelərinə baxmışlar. Çərşənbə gecəsində axşam qadınlar, qızlar, oğlanlar kiminsə evinə yığılıb çilə çıxarardılar. Qızlar su ilə fal açıb bəxtlərini sınayardılar. Bu, "Üskük çıxarma" falıdır. Bir camın içərisinə hərə öz nişanəsini - üzük, sırğa, düymə atırdı, sonra qabın üzərinə dəsmal salınırdı. Nişanələr qabın içərisində iki-üç dəfə qarışdırılıb bayatı deyilirdi, bir yeniyetmə qız uşağı əlini camın içərisinə salıb nişanənin birini sudan çıxarırdı. Bayatını oğlan, qız, qadın, kişi hər kəs deyə bilərdi. Hər dəfə bayatı deyiləndə camdan kimin nişanəsi çıxsa, onun diləyi həmin bayatı olan mətləbə uyğun yozulardı. Bayatı söylənilən anda, hələ nişanə çıxmamış hiss olunurdu ki, həmin bayatıya uyğun kimin üzüyü, nişanəsi çıxa bilər.

Bu mərasim səhərə kimi davam edir. Günəş doğandan sonra mərasim iştirakçılarının su üstünə gedib çillə kəsdirməsi, əl-üzünü yumaları, niyyət edib suyun üstündən tullanaraq, "Ağırlığım-uğurluğum bu sulara", "Ağırlığımı su götürsün" deməsi ilə başa çatır.

Saçı qabda suya salıb və ya sapa üzük bağlayıb evlilik yaşını, iynələrin uclarına pambıq sarıyıb qismətini təyin etmək də fal inanclarındandır.

Dirilik suyu Xıdır və İlyas qardaşlarının adı ilə bağlıdır. Onların dirilik suyu - "abi-çavidan"ı tapmaları ilə bağlı mifoloji rəvayətlər mövcuddur. Əfsanələrə görə, Xıdırla İlyas iki qardaş olublar. Onlar abi-həyat suyunu içdikdən sonra ölməzlik qazanıblar. Onların bir-birinə qovuşduğu gün isə Novruz bayramının başlandığı gün hesab olunur. Rəvayətlərdə deyilir ki, Xıdır quruda, İlyas isə suda yaşayırlar. Onlar həmişə köməyə ehtiyacı olanın imdadına yetişirlər. Kiçik qış fəslində Böyük Çillə ilə Kiçik Çillə arasında "Xıdır Nəbi" bayramı keçirilir. Bu da Xıdır Nəbinin adı ilə bağlıdır. Novruzun ilk çərşənbəsi isə İlyasın adı ilə bağlanır. İlk çərşənbə bəzi mənbələrdə "İliyaz çərşənbə" adı kimi verilmişdir. Bu çərşənbə axşamından etibarən suların buzu əriyir, sular get-gedə isinir, gecələr donmur, deyilənə görə o, "yer altında yaza gedir". Bu səbəbdən də xalq arasında ilk çərşənbə Su çərşənbəsi kimi tanınır.

Xalq əfsanələrində, məhəbbət və qəhrəmanlıq dastanlarında suyun müxtəlif funksiyalar daşıdığı motivlərlə yanaşı, dirilik rəmzi olduğuna da rast gəlinir. Qəhrəmana gücü, qüvvəni, qeyri-adi qabiliyyətləri verən vasitələrin biri də sudur. Folklorda "dirilik suyu" aktiv işlənir. Azərbaycan folklorunda dirilik suyu Şirvanla əlaqəli verilir. Rəvayətlərdə, nağıllarda, Nizaminin "İsgəndərnamə"sində dirilik suyu içmək Xıdıra nəsib olur. "İsgəndərnamə"də İsgəndər dirilik suyunu axtarsa da, tapa bilməsə də, onun hikmətini dərk edir. "Koroğlu" dastanındakı Qoşabulaq da dirilik bulağı, ölməzliyin rəmzidir. Qoşabulağın suyundan içəndən sonra Koroğluya qeyri-adi aşıqlıq, şairlik, nərə, Qırata möcüzəvi xüsusiyyətlər gəlir.

Azərbaycan türklərinin inamlarında suyun kultlaşması onun əcdad olması, övlad verməsi, and yerinə çevrilməsi digər faktlarda gerçəkləşmişdir. İlkin başlanğıc olan su insan nəslinin artımından sonra çay, bulaq, göl və s. şəkillərdə inamlar sisteminə daxil olmuşdur. Türk dünyagörüşündə suya tapınmanın izlərindən Su Tanrısı obrazı formalaşmışdır.

Su çərşənbəsində süfrələr bəzədilir. Təmiz sudan hazırlanmış pürrəngi çay, müxtəlif şirniyyat və yeməklər, əsasən də plov süfrənin nemətləri sırasında olur. Bu çərşənbədə süfrəyə səməni qoyulmur. Təmiz, lal suyun süfrədə olması isə vacibdir. Əgər həmin su aşarsa, bu bolluğun rəmzi kimi qiymətləndirilir.

Su Tanrının müqəddəs nemətlərindən biridir. Suyu müqəddəs bilən xalqımız bu çərşənbədə su ilə bağlı ayinləri həyata keçirərək bayramın ilk günlərini qarşılayır.

Axar sularımız bulanmasın! Tanrı ölkəmizə həmişə əmin-amanlıq, bolluq nəsib etsin. Su çərşənbəniz mübarək!

***Səhər ORUCOVA,***
*Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*

# Paklıq, bərəkət rəmzi - Od çərşənbəsi

***Təbiətin dirilməsi, gecə ilə gündüzün bərabərləşməsi, əkinçilik həyatının başlanğıcını özündə təcəssüm etdirən Novruz bayramının ikinci çərşənbəsi el arasında "Kül çərşənbəsi", "Külə çərşənbə", "Od çərşənbəsi", "Xəbərçi çərşənbə", "Üskü çərşənbə", "Xız çərşənbə" və s. adlarla tanınır.*** Od dünyanın xeyirxah qüvvələrinin başlanğıcı, Günəşin yerdəki rəmzi kimi düşünülüb. Bu çərşənbə əski görüşlərlə bağlı olub, Günəşə, oda tapınma ilə əlaqədar yaranıb. Qobustan qayaüstü rəsmlərində "Yallı" rəqsinin od ətrafında ifa edilməsi əcdadlarımızın oda olan sevgisinin bariz nümunəsidir. Qədim etiqadlara görə, insanlar odocağı nə qədər çox əzizləsələr, təbiət bir o qədər tez canlanar və torpaq qış yuxusundan tez oyanardı. İnanılırdı ki, Günəşin yerdəki təmsilçisi od-alov təzələnməklə yanaşı, insanları "çillədən" xilas edib, azar-bezardan qoruyur, sağlamlıq, paklıq, gümrahlıq bəxş edir. Bu axşam evlərdə tonqal nə qədər gur yandırılarsa, yeni ildə hər ailənin həyatı o qədər nurlu və xoşbəxt keçər. Adətə görə, bu çərşənbə axşamı ailənin sonbeşiyi evin 4 küncündə şam, çıraq yandırmaqla hər tərəfi nura qərq edər, otaqların taxçalarında yerləşdirilmiş güzgülər şam-çırağın gücünü bir neçə dəfə artırar və deyərdilər: "Od-çıraq yandıran xeyir aparar, çırağı heç vaxt sönməz".

İnsanları azara-bezara salan bədxah qüvvələr ocaq və tonqal külünə toplaşdığından, köhnə ilin çətinlikləri, acısı, uğursuzluqlarından yaxa qurtarmaq üçün il boyu cəmlənmiş külü ev-eşikdən uzaq bir yerə aparar, divar dibinə, axar suya və ya yağış axan novdanın altına tökərdilər. Deməli, ilaxır çərşənbələrdə insanların çillələrinin töküldüyü külü təmizləyici gücə malik olan su təmizləyir. Külü aparmış şəxs evinə qayıtdıqda soruşardılar: "Haradan gəlirsən?" O cavab verərdi: "Toydan-bayramdan".

Bu çərşənbə axşamında ayin və mərasimlərin əksəriyyəti tonqal və ocaq başında icra olunur. Çərşənbə tonqalına yaş, ağlayan və ya acı tüstülü ağac atılmazdı, insanlar sonsuz qalmaqdan qorxardılar. Çərşənbə tonqalı quru odun, kol-kos, çırpı və qaratikandan ibarət olmalı idi. Elin ağsaqqalının darvazasının yanında, məhəllə və kəndin mərkəzində, düzənlikdə, axar suların sahilində böyük tonqallar qalanardı. Hər həyət-bacada, darvaza önündə ailə, soy-nəsil tonqalları qalanar, həttə uzaq səfərdə olan ailə üzvləri üçün də ayrıca tonqal çatılardı. İnsanlar növbə ilə tonqalın üstündən 3 və ya 7 dəfə hoppanar və bu zaman tonqala müraciətlə "Azarım-bezarım, ağrım-acım, qadam-bəlam bu oda tökülsün" və ya "Bizdən bəla uzaq olsun, qüssə-kədər iraq olsun, sarılığım keçsin sənə, qırmızılığın, qızıllığın mənim olsun!" - söyləyərdilər. Ərə veriləcək nişanlı qızları tonqalın, ocağın başına dolandırar və "odlu-ocaqlı olsun!" - deyərdilər. Ərə getməmiş qızları hər vasitə ilə tonqalın üzərindən hoppanmağa məcbur edər və onların "bağlı" bəxtlərinin açılacağına inanardılar. Tonqalın, odun təsir gücünü artırmaq məqsədilə oda üzərlik səpərdilər. İnsanlar ev-eşiyini, heyvanları bəd-nəzərdən qorumaq üçün evini, ağılı, tövləni üzərlik tüstüsünə tutardılar. Gənclər tonqaldan qızarmış kösövü, süpürgəni və ya neftə hopdurulmuş lopa məşəllərini göyə atardılar.

Od, ocaq türk və dünyanın bir çox xalqlarında Günəşin yerdəki rəmzi, ailə və nəslin mövcudluğu, birlik rəmzi, gələcəkdən xəbər vermə, müalicəvi, təmizləyici, paklaşdırıcı, qoruyucu funksiyaları daşıyır. Babalarımızın ən qədim andı Günəş, od-ocaq ilə bağlı idi. And içərkən "Od haqqı", "Günəş haqqı", "O işığa, o ocağa and olsun!", alqış eləyəndə isə "Ağ gün görəsən!", "İşıqlığa çıxasan!", " Üstünə nur çilənsin!" və s. demişlər.

***Məhəmməd Məmmədov,***
*Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti*

# Hüquq fakültəsində BMT QAK-ın nümayəndə heyəti ilə görüş

***Fevralın 1-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Hüquq şöbəsinin müdiri İvan Çarnetski və qurumun əməkdaşları Hüquq fakültəsində olublar.***

Fakültənin dekanı Zaur Əliyev hüquq tədrisi sahəsində BMT-nin müxtəlif strukturları, İnsan Hüquqları üzrə Ali Komissarlıqla əməkdaşlıq barədə ətraflı məlumat verib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusunun işğal altında olan əraziləri azad etdiyini, ərazi bütövlüyümüzün bərpa olunduğunu, məcburi köçkünlərin mərhələli şəkildə öz doğma yurdlarına qayıtdığını qeyd edib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağ və Şərqi Zəngəzura səfərləri işğaldan azad olunmuş ərazilərimizin sürətlə bərpa olunduğunu bütün dünyaya nümayiş etdirir. Azərbaycanın vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatlarının fəallarının təbii



sərvətlərin talanması və ətraf mühitin çirkləndirilməsinə qarşı Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiyada Hüquq fakültəsinin də iştirak etdiyini BMT nümayəndələrinin diqqətinə çatdıran dekan Ermənistan tərəfindən işğal dövründə şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, tarixi, dini, mədəni abidələrimizin dağıdılması, təbii sərvətlərin qanunsuz istismarına görə kompensasiyanın ödənilməsinin zəruriliyini qeyd edib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndəsi İvan Çarnetski Hüquq fakültəsinin fəaliyyətini, o cümlədən hüquqi tədris sahəsində BMT ilə əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirib, genişmiqyaslı və müntəzəm əməkdaşlıqda maraqlı olduqlarını bildirib. Görüşdə Hüquq fakültəsi ilə əməkdaşlıq çərçivəsində təlimlərin təşkili və tələbələrin BMT-nin müvafiq strukturunda istehsalat təcrübəsi keçmək imkanları müzakirə edilib.

# "İnnovativ gənc mühəndislər" layihəsi başa çatıb

***Fevralın 13-də BDU-da Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə keçirilən "İnnovativ gənc mühəndislər" layihəsinin mükafatlandırma mərasimi keçirilib.*** Mərasimdə çıxış edən BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov müasir dövrdə innovativ düşüncəli, geniş elmi-texniki biliklərə və yüksək yaradıcılıq qabiliyyətinə sahib olmağın gənclər üçün vacib olduğunu deyib və belə layihələrdə aktiv iştirakı yüksək qiymətləndirib. Sonra layihə rəhbəri Orxan Güləhmədov layihənin nəticələri barədə ətraflı məlumat verib. Qeyd edək ki, layihənin seçim turlarına qatılan 100 nəfərdən Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, BDU nəzdində "Gənc istedadlar liseyi" və Xəzər rayonundakı



322 nömrəli tam orta məktəbi təmsil edən 20 gənc seçilib. Onlar 4 komanda şəklində müxtəlif praktiki tapşırıqları yerinə yetiriblər. 4 komanda arasında ən yaxşı iş təqdim edən "TechnoBrains" komandası qalib gəlib. Layihənin sonunda iştirakçılara sertifikat və hədiyyə kuponları, qalib komandanın üzvlərinə isə diplom və hədiyyələr verilib.

Qeyd edək ki, layihənin əsas məqsədi gənclərin elmi-texniki, praktiki bacarıqlarını, intellektual səviyyələrini inkişaf etdirmək, asudə vaxtlarını səmərəli keçirmələrini təşkil etmək, dövlət gənclər siyasətinin reallaşdırılmasına dəstək olmaq, gənclərdə yaradıcılıq işlərinə marağı artırmaqdır.

# BDU tələbələri kimya profilli elmi-tədqiqat institutlarında tədris-istehsalat təcrübəsində

***Fevralın 27-də Kimya fakültəsinin IV kurs tələbələri Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası, Kataliz və Qeyri-üzvi Kimya, Neft-Kimya Prosesləri institutlarında tədris-istehsalat təcrübəsi keçirlər.*** Tələbələr mayın sonuna qədər bu institutlarda müasir kimyanın aktual problemləri, yağlar, soyuducu mayelər, sürtkü materialları, neft kimyası, filiz xammalı, nanotədqiqatlar, biomimetik sensorlar, katalizatorlar, tətbiq əhəmiyyətli yeni materiallar ilə bağlı təcrübi biliklər toplayacaqlar. Kimya profilli elmi-tədqiqat institutları ilə əlaqələrin qurulması və tələbələrin bu işdə aktiv iştirakı ölkəmizdə, eləcə də BDU-da elmlə təhsilin inteqrasiyası istiqamətində atılan uğurlu addımlardan biridir.



# BDU kollektivi Türkiyə səfirliyini ziyarət edib



***BDU-nun kollektivi Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar qardaş ölkənin Azərbaycandakı səfirliyini ziyarət edib. Səfirlik binasının önünə əklil və gül dəstələri qoyulub, zəlzələ qurbanlarının əziz xatirəsi ehtiramla yad edilib.***

Qeyd edək ki, Türkiyədə çoxsaylı insan tələfatına səbəb olan zəlzələ ilə əlaqədar qardaş ölkəyə dəstək məqsədilə ölkəmizdə həyata keçirilən humanitar yardım kampaniyasında BDU-nun kollektivi və tələbələri könüllü olaraq fəal iştirak edirlər.

# Astrofizika kafedrası: 27 fevral-01 mart tarixlərində maqnit qasırğası gözlənilir



***24-25 fevral tarixlərində Günəş səthində baş vermiş alışmalar hesabına yaranan Tac Kütlə Atılmasının (Coronal Mass Ejection - CME) fevralın 27-də Yerə çatacağı və onun təsirinin fevralın 28-dək davam edəcəyi proqnozlaşdırılır.*** Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, fevralın 24-də baş vermiş CME-nin təsirindən fevralın 27-də Yerdə geomaqnit sahə G2 (orta) qasırğa səviyyəsinə yüksələcək. Fevralın 28-də bu təsirin saxlanacağı, martın 1-də isə geomaqnit sahənin qeyri stabil-aktiv səviyyədə olacağı, bəzi saatlarda G3 (güclü) səviyyəsinə yüksələcəyi proqnozlaşdırılır.

Fevralın 27-si üçün Günəşdə alışmaların başvermə ehtimalı C sinif (Yerə təsir edə bilməyən) alışmalar üçün 99%, M sinif (zəif və az təsirli olaraq radiodalğaların yayılmasını əngəlləyən) alışmalar üçün 65% və X sinif (güclü) alışmalar üçün isə 15% -dir.

Geomaqnit qasırğası risk qrupuna daxil olan xroniki xəstələr, yaşlı insanlar və uşaqların səhhətində narahatlıq-diskomfort hissi yarada bilər. Meteohəssas insanlara həkimlərin məsləhəti ilə profilaktik tədbirlər görmələri tövsiyə olunur.

# BDU alimləri Abşeron göllərinin ekoloji vəziyyətini tədqiq ediblər

***Fevralın 7-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının əməkdaşları tərəfindən Abşeronun Lökbatan, Binəqədi və Kürdəxanı gölləri və ətraf ərazilərdə torpaq örtüyü, mezofauna, flora və ornitofaunanın ekoloji vəziyyəti tədqiq edilib.***



Lökbatan gölü Abşeron yarımadasının cənub-qərbində, Qaradağ rayonu ərazisində yerləşərək, ümumi sahəsi 270 ha, dəniz səviyyəsindən hündürlüyü -24 m təşkil edir. Lökbatan gölü ətrafında şoranvari-şorakətvari boz-qonur torpaqlar yayılıb. Boz torpaqlar əsasən qarağanlı yovşanlı, qarağanlı-yovşanlı-efemerli, yovşanlı-efemerli bitki örtüyünün altında yayılıb. Aparılmış torpaq və kameral-laboratoriya tədqiqatları bu torpaqların kifayət qədər şorlaşmaya məruz qaldığını göstərir.

İlin müxtəlif mövsümlərində tədqiqat ərazisinə edilmiş səfərlər nəticəsində Lökbatan gölü və ətraf sahələrin florası inventarlaşdırılıb. Lökbatan gölünün ətraf sahələrinin bitki örtüyünü Abşeron üçün xarakterik olan yarımsəhralar təşkil edir, burada göl boyunca çoxbudaqlı yulğun kolları (Tamarix ramossisima), az duzlu sahələrdə ağacvarı şorangə (Salsola dendroides Pall.), ətli şoran (Climacoptera crassa), duzların artıq olduğu ərazilərdə isə Avropa duzlaq çoğanı (Salicornia europaea L.), duzlaq asteri (Aster tripolium L.) növləri yayılıb. Gölün ətraf sahələrinin məişət tullantıları və lazımsız tikinti materialları ilə çirkləndirilməsi buradakı yarımsəhra fitosenozlarının vəziyyətini xeyli pisləşdirib. Mövcud vəziyyətlə əlaqədar burada bitkilərin sayı Binəqədi gölü və ətraf sahələrlə müqayisədə xeyli azdır. Lökbatan gölü və ətraf ərazilərə edilmiş səfər zamanı 8 fəsiləyə və 14 cinsə aid 19 növ borulu bitki qeydə alınıb. 2022-ci ilin fevral və iyul aylarında aparılmış tədqiqatlar zamanı göldə 8 dəstəyə aid 37 quş növü qeyd olunub. Bunlardan 485-i ördəklər, 620-si (daha çox) sərçəkimilər dəstəsinə aiddir. Fevral ayında qeydə alınmış 18 növ köçəri quşlardır. İyul ayında qeydə alınmış 10 növdə yuvalama, bəziləri isə qışlama və yuvalama qeydə alınıb. 22 növ oturaq quşlardır.

Binəqədi gölü və ətraf ərazilərdə aparılmış tədqiqatlar nəticəsində müəyyən edilib ki, ərazi antropogen mənşəli çirklənməyə məruz qalıb. Gölətrafı ərazidə təbii yovşan-efemer və otlu-kolluq bitkiləri altındakı təbii senozlarda iki tipə (Mollusca və Arthropoda), dörd sinifə, altı dəstəyə, beş fəsiləyə, yeddi cinsə aid olan onurğasızlar yaşayır. Tədqiqatlar nəticəsində müəyyən edilib ki, uzun illər ərzində edilən mənfi təsirlər gölün ekoloji tarazlığının pozulmasına, təbii keyfiyyətlərinin itirilməsinə, ətraf ərazinin flora və fauna üçün yararsız hala düşməsinə səbəb olub. Nəticədə torpaq onurğasızları qrupunun kasad olaraq yalnız həşəratlardan (Arthropoda) (85,7%) və qarınayaqlılardan (Gastropoda) (14.3%) ibarət olduğu müəyyən edilib. Göl və ətraf ərazilərin florasının tədqiqi zamanı 10 fəsiləyə (Chenopodiaceae, Caryophyllaceae, Geraniceae, Poaceae, Cucurbitaceae, Apiaceae, Tamaricaceae, Primulaceae, Asclepidaceae, Lemnaceae), 21 cinsə aid 29 növ ali bitki növü qeydə alınıb. Ekoloji qruplara görə göstərilən bitkilər hiqrofit, hidrofit, halofit, kserofit, psammofit və ruderal bitkilərə aiddir.

Qeyd etmək lazımdır ki, Azərbaycandan, o cümlədən Abşeron yarımadasından Avrasiyanın ən güclü quş uçuş yollarından biri (Şərqi Avropa və Qərbi Sibirdən Cənub-Şərqi və Cənub-Qərbi Afrikaya və əksinə) keçir. Bu isə quşların yolüstü istifadə etdikləri su hövzələrini çirklənmədən və məhv olmadan qorumağı tələb edir. Bununla yanaşı, Abşeron yarımadası quşların Volqa-Ural hövzəsi, Qərbi Sibir və Qazaxıstandan Şimal-Şərqi Afrikaya uçuş yolunda yerləşir. Adətən köçəri quşlar Azərbaycan ərazisinə, Abşeron göllərinə dekabr ayında gəlirlər. Qış mövsümündə (dekabr ayı) BDU alimləri tərəfindən Kürdəxanı və Binəqədi gölündə bir sıra müşahidələr aparılıb. Bu zaman əsasən quşların keyfiyyət və kəmiyyət göstəriciləri tədqiq edilib. Göldə İyrəncəkimilər, Cüllütkimilər, Göyərçinkimilər, Qızılquşkimilər, Qağayıkimilər, Qazkimilər, Durnakimilər, Sərçəkimilər dəstələrinə aid 32 növ quş qeydə alınıb. Qazkimilər dəstəsinə aid 325, Cüllütkimilərə aid 215, Sərçəkimilərə aid isə 220 fərd sayılıb. Bəzi növlər ölkə ərazisində oturaq həyat tərzi keçirir. Kürdəxanı gölü bir sıra Abşeron gölləri ilə müqayisədə antropogen mənşəli çirklənməyə məruz qalmayıb, əhalinin quşlara neqativ təsiri qeydə alınmayıb. Göldə qeydə alınmış quşlar arasında yuvalamaya, qışlamaya, yuvalama-qışlama, qidalanmaya gələn qruplar var. Bütün fəsillərdə eyni dəstələrin müşahidəsi göstərir ki, əlverişli şəraitlə yanaşı, bu ərazilər onların tarixi areallarının bir hissəsidir.

# BDU-da neftli çökmə suxurlarının kimyəvi və mineraloji tərkibinə dair elmi seminar

***Fevralın 13-də Geologiya fakültəsində "Məhsuldar qat çöküntülərində kimyəvi elementlərin paylaşmasının süxurların struktur-litoloji-mineraloji xüsusiyyətlərindən asılılığı" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Ümumi və tarixi geologiya kafedrasının dosenti Fərrux Həsənov mövzu ilə bağlı çıxış edib. Məruzədə Bulla-dəniz və başqa yataqların neftli çökmə suxurlarının kimyəvi və mineraloji tərkibi haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, Bulla-dəniz yatağında böyük dərinliklərdə (6314m-dən - 6400m-dək) suxurların kimyəvi və mineraloji tərkibi kəskin dəyişir. Bu intervalda kvars və çöl şpatının miqdarı kəskin azalır, lakin kalsit və barit minerallarının miqdarı artır. Bu kəsilişdə karbonatların əmələ gəlməsi yenidən kristallaşma ilə əlaqədar olub, əsas proseslərdən biri kimi postsedimentasiyon dəyişməsi və polimorf kalsitin yaranmasına səbəb olur.

Seminarın sonunda iştirakçıların sualları cavablandırılıb, mövzu ilə bağlı müzakirələr aparılıb.

# Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndanın məqaləsi impakt faktorlu jurnalda dərc olunub

***Şərqşünaslıq fakültəsinin dekanı, dosent Aydan Xəndanın Braziliyada çıxan "Revista Entre Linguas" adlı impakt faktorlu jurnalda "Türk poeziyasında qadın obrazı (tədris materialları əsasında)" ("Based on teaching materials woman figure in the Turkish poetry") adlı elmi məqaləsi çap olunub.***

Tədqiqatda klassik poeziyadan XX əsr türk poeziyasına qədər nümunələrdə qadın obrazları təhlil olunub. Universitetlərdə tədris olunan bədii mətnlərdə qadın obrazlarının mövzunun mənimsənilməsində mühüm əhəmiyyət kəsb etdiyi nəzərə çatdırılıb.

# Nərə balığının Azərbaycana məxsusluğu elmi tədqiqatlarla sübuta yetiriləcək

***Nərə balığının Azərbaycana məxsusluğu elmi tədqiqatlarla sübuta yetiriləcək. Bu, BDU və "LU-MUN HOLDİNG" arasında imzalanan əməkdaşlıq müqaviləsində nəzərdə tutulur.***

Artıq bu məqsədlə BDU-nun Biologiya fakültəsində xüsusi qrup formalaşdırılıb. Nərəcinsli balıqlar dəniz suyu və şirin suda saxlanacaq, onlardakı kimyəvi və histoloji dəyişikliklər müşahidə olunacaq, genetik analizlər aparılacaq. Aparılan genetik analizlər nəticəsində Xəzər nərəsi pasportlaşdırılacaq və onun Azərbaycana məxsusluğu elmi tədqiqatlarla təsdiqlənəcək.

# Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov Hüquq fakültəsində mühazirə deyib



***Fevralın 17-də uzun illər Hüquq fakültəsinin müəllimi olmuş, hazırda isə Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi, hüquq üzrə elmlər doktoru, professor Lətif Hüseynovun Hüquq fakültəsinin tələbələri ilə görüşü keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev professor Lətif Hüseynovun elmi-pedaqoji fəaliyyəti haqqında tələbələrə məlumat verib. Tanınmış hüquqşünas alimin tələbələrlə görüşünün onların biliklərinin zənginləşdirilməsi üçün atılan mühüm addım olduğunu diqqətə çatdırıb. Daha sonra professor Lətif Hüseynov "Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası" mövzusunda mühazirə söyləyib.

İki saatdan artıq davam edən mühazirədən sonra tələbələrin çoxsaylı sualları cavablandırılıb. Professor Lətif Hüseynov bu kimi görüşlərin davamlı olacağını bildirib.

# BDU alimləri qamma radiasiyanın ilbizlərə təsirini araşdırıblar

***BDU-nun Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilov və həmin kafedranın dosenti Aygün Nəsibovanın həmmüəllif olduqları "Şüalanmış üzüm ilbizlərinin (Helix pomatia) Elektron Paramaqnit Rezonans üsulu ilə öyrənilməsi və biofiziki parametrlərin tədqiqi" "(Electron Paramagnetic Resonance studies of irradiated grape snails (Helix pomatia) and investigation of biophysical parameters") adlı elmi məqalə "Web of Science" və "SCOPUS" elmmetrik bazalarına daxil olan (IF: 4.927) "Molecules" jurnalında dərc olunub.***

Məqalə Abşeronun müxtəlif ərazilərindən toplanmış və qamma radiasiya ilə şüalandırılmış çanaqlı üzüm ilbizlərinin biofiziki parametrlərinin tədqiqinə həsr edilib.

# "Gənc istedadlar" liseyinin şagirdləri "Sabahın alimləri" XII Respublika müsabiqəsinin qalibləri sırasında

***Fevralın 15-də "Sabahın alimləri" XII Respublika müsabiqəsinin bağlanış mərasimi keçirilib. Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev təbrik nitqi ilə çıxış edib.***

BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri müsabiqədə xüsusi fərqləniblər. Onlardan XI sinif şagirdləri Misir Hüseynli və Ayşan Hacıyeva fizika və astronomiya, Ayaz Ömərli və Ömər İbrahimov isə kimya istiqaməti üzrə I yerə layiq görülüblər. X sinif şagirdi Camal Axundov biologiya istiqaməti üzrə II yeri qazanıb.



X sinif şagirdləri Cəfər Cəfərov və Aytac Əliyeva biologiya, IX sinif şagirdi Ərhun Abdullazadə isə fizika və astronomiya istiqaməti üzrə üçüncü yerə layiq görülüblər. XI sinif şagirdi Fidan Ruhullayeva və X sinif şagirdi Xuraman Yəhyazadə biologiya istiqaməti üzrə xüsusi mükafata sahib olublar. Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# Türkiyədə zəlzələ bölgəsində çalışmış BDU könüllüləri ilə görüş

***Fevralın 28-də Türkiyədəki zəlzələdən sonra zərərçəkənlərə kömək məqsədi ilə qardaş ölkəyə yollanmış Azərbaycan könüllülərinin içində BDU-nun 3 könüllüsü də var. BDU könüllüləri - Murad Zeynalov, Fazil Bəhramov və Murad Musazadə fevralın 10-dan Türkiyənin Kahramanmaraş bölgəsində yerli əhaliyə zəruri yardım ediblər.*** Murad Zeynalov və Fazil Bəhramov fevralın 26-da Vətənə dönüb, Murad Musazadə isə hələ





də Kahramanmaraşda könüllülük fəaliyyətini davam etdirir.

Türkiyədən qayıtmış BDU könüllüləri ilə görüşən rektor Elçin Babayev onlara təşəkkür edib. Rektor bildirib ki, BDU könüllüləri ölkənin ictimai-siyasi həyatında aktiv iştirak edir, bütün məsələlərdə daim vətəndaş mövqeyi göstərirlər.

Murad Zeynalov və Fazil Bəhramov zəlzələ bölgəsində ümumi vəziyyət və Azərbaycan könüllülərinin fəaliyyəti ilə bağlı məlumat veriblər. Qeyd ediblər ki, Kahramanmaraşda olduqları 15 gün ərzində evsiz sakinlər üçün çadırların qurulması, humanitar yardımların boşaldılması və paylanmasında yardım göstəriblər.

# Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri istehsalat təcrübəsində

***Fevralın 20-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələrinin istehsalat təcrübələri başlayıb.***

Fakültənin ekologiya ixtisası üzrə Azərbaycan, ingilis və rus bölmələrində təhsil alan IV kurs tələbələri üçün fevral-mart ayları ərzində Elm və Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi (RUGİM) və "EkoSfera" Qala Etno-Ekoloji Mərkəzində istehsalat təcrübəsi təşkil olunur. İstehsalat təcrübəsi BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsi və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi arasında 2015-ci ildə imzalanan anlaşma memorandumuna əsasən keçirilir.



Tələbələrə RUGİM-in direktoru, BDU-nun Bioekologiya kafedrasının dosenti, biologiya elmləri namizədi Firuzə Sultanzadə və mərkəzin digər mütəxəssisləri tərəfindən ekoloji təhsil və davamlı inkişaf, ekoloji turizm, layihələrin idarəedilməsi barədə geniş məlumat verilir, onların iş prosesi ilə əyani tanış olmalarına şərait yaradılır.

Bununla yanaşı, torpaqşünaslıq və aqrokimya, yerquruluşu və daşınmaz əmlakın kadastrı ixtisaslarında təhsil alan tələbələr Əmlak Məsələləri Dövlət Xidməti və Kənd Təsərrüfatı Nazirliyinin müvafiq strukturlarında istehsalat təcrübələrinə başlayıblar.

İstehsalat təcrübəsi tələbələrin əldə etdikləri bilik və bacarıqların elmdə tətbiqinə yiyələnməsinə, yüksəkixtisaslı elmi kadrların hazırlanmasına xidmət edir.

# SOCAR-da könüllü kimi fəaliyyət göstərən tələbələrlə görüş



***Fevralın 28-də Geologiya fakültəsində SOCAR-da könüllü kimi fəaliyyət göstərən fakültə tələbələri ilə görüş keçirilib.***

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin gənclərin dövlət qurumları və özəl sektorda könüllü kimi cəlb olunaraq təcrübə qazanmaları ilə bağlı tapşırığına əsasən, "SOCAR Könüllüləri" qrupu yaradılıb. 6 ali təhsil müəssisəsindən tələbələrin bir araya gəldiyi "SOCAR Könüllüləri" qrupunda BDU-nun Geologiya fakültəsinin 10 tələbəsi də aktiv iştirak edir.

Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə fakültə tələbələrinin könüllü kimi fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, qardaş ölkə Türkiyədə baş vermiş zəlzələdən zərər çəkən vətəndaşlara yardım üçün yollanan könüllülərdən 2-si Geologiya fakültəsinin tələbəsidir.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, "BDU Könüllüləri" təşkilatının rəhbəri Nərmin Heydərova çıxışlarında Universitetdə könüllülük fəaliyyətinin geniş vüsət aldığını nəzərə çatdırıb, dövlət siyasətinin həyata keçirilməsində gənclərin fəaliyyətinin koordinasiyalı idarə olunmasının önəmini vurğulayıblar.

# BDU-nun tələbələrdən ibarət futzal komandası I yeri tutub

***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi (ATİAHİ RK) tərəfindən ali məktəb tələbələri arasında təşkil olunmuş futzal yarışlarında BDU-nun komandası I yeri qazanaraq turnirin qalibi olub.*** 22 ali təhsil müəssisəsinin iştirak etdiyi futzal turnirində II yeri Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, III yeri isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandaları qazanıb. Qaliblər ATİAHİ RK-nın sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.



BDU-nun futzal komandasını təbrik edir, uğurlar arzu edirik!

## Tələbələrimiz Ərəb dili üzrə Asiya debat çempionatında müvəffəqiyyət sertifikatına qazanıblar



***Fevralın 6-da Şərqşünaslıq fakültəsinin tələbələri Omanın paytaxtı Maskatda keçirilən Ərəb dili üzrə Asiya debat çempionatında müvəffəqiyyət sertifikatına yiyələniblər.***

Qeyri-ərəb ölkələrinin də iştirak etdiyi beynəlxalq yarışda BDU-nun gələcək şərqşünasları çətin qruplardan birində mübarizə aparıblar. Tələbələr Tayland komandası üzərində qələbə qazanıb, Malayziya komandası qarşısında az fərqlə xal itiriblər.

Debat çempionatında əsas mövzuları biomüxtəliflik, yaşıl iqtisadiyyat, ekoloji təhlükəsizlik kimi qlobal problemlər təşkil edib.

## 452 BDU könüllüsü Laçın-Xankəndi yolundakı ekoaksiyada aktiv iştirak edir




***"BDU könüllüləri" təşkilatının üzvləri Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı və ekoloji cinayətlərin dərhal dayandırılması tələbi ilə Laçın-Xankəndi yolunda keçirilən ekoaksiyada fəallıqları ilə seçilirlər. 452 BDU könüllüsü aksiyanın ilk günlərindən milli haqlarımız uğrunda rus sülhməramlıları ilə qarşı-qarşıya dayanır, mübarizə aparır.***

Ötən ilin dekabrından başlayan aksiyada ölkənin şəhər və rayonlarından, müxtəlif ali təhsil müəssisələrindən olan gənclər soyuq, qar demədən dinc yolla milli dirənişimizin önündə durur, Azərbaycanın haqq səsini dünyaya çatdırırlar. Azərbaycan gəncləri əzm və qətiyyət, birlik nümayiş etdirərək aksiyanı artıq 60 gündür davam etdirirlər.

## BDU könüllüləri Türkiyədə zəlzələdən zərər çəkənlərə yardımtoplama kampaniyasında iştirak edirlər



***"BDU könüllüləri" təşkilatının üzvləri fevralın 8-dən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Türkiyədə zəlzələdən zərər çəkən vətəndaşlara yardım məqsədilə Əl Oyunları Sarayında təşkil olunan kampaniyada iştirak edirlər.***

Hər gün 40-dək BDU könüllüsü vətəndaşların gətirdiyi əşyaların çeşidlənməsi, qutulara yığılması prosesinə yardım göstərir.

BDU kollektivi bir daha Türkiyədə dəhşətli zəlzələdə həlak olan bacı və qardaşlarımıza rəhmət, yaralılara şəfa diləyir.

# Qış imtahan sessiyasının təşkilində aktiv iştirak edən BDU könüllüləri təltif olunublar

***Fevralın 27-də BDU-nun bir qrup könüllüsü 2022/2023-cü tədris ilinin qış imtahan sessiyasının təşkilində könüllü kimi fəal iştiraklarına görə təşəkkürnamə ilə təltif ediliblər.***

"BDU Könüllüləri" təşkilatının "Təcrübə könüllüləri" layihəsinin iştirakçıları Universitetin müxtəlif strukturlarında 3 ay müddətində fəaliyyət göstərir, gələcək karyeraları istiqamətində ilkin addımlar atır və təcrübə qazanırlar. Könüllülər imtahan sessiyalarının təşkilində də mütəmadi iştirak edirlər.

## Qış imtahan sessiyası başa çatıb

***BDU-da qış imtahan sessiyası başa çatıb. Sessiya yanvarın 5-dən fevralın 3-dək davam edib.***

Bakalavriatura səviyyəsində 927 qrup üzrə 20 mindən çox, magistratura səviyyəsində isə 261 ixtisaslaşma üzrə 1981 tələbə imtahan verib.

Sessiya zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən 5000-dən çox təhsilalana həmin fənlərdən imtahan vermək üçün 2023-cü ilin fevral ayının 7-dən 14-dək şərait yaradılacaq. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edib.

## BDU Türkiyədə zəlzələdən zərərçəkənlərə humanitar yardım göstərəcək

***BDU qardaş Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə humanitar yardım göstərəcək. Bu barədə BDU Elmi Şurasının iclasında qərar qəbul olunub.***

Qeyd edək ki, BDU əməkdaşları və tələbələri zəlzələ baş verən gündən yardım kampaniyasına qoşulublar. Universitetin həm gənclər təşkilatları, həm fakültələri səviyyəsində zəruri ərzaq və geyim ləvazimatları alınaraq təhvil verilib, pul yardımı edilib. "BDU könüllüləri" təşkilatının üzvləri fevralın 8-dən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Türkiyədə zəlzələdən zərər çəkən vətəndaşlara yardım məqsədilə Əl Oyunları Sarayında təşkil olunan kampaniyada iştirak edirlər. Hər gün 40-dək BDU könüllüsü vətəndaşların gətirdiyi əşyaların çeşidlənməsi, qutulara yığılması prosesinə yardım göstərir. Hazırda BDU-nun 3 könüllüsü Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə qardaş ölkədə zəlzələdən zərərçəkənlərə yardım edir.

## BDU-nun Hirş indeksi 55 oldu

***"Tədqiqat Universiteti"nə çevrilmək missiyasını öz üzərinə götürən BDU elmi tədqiqatlarda keyfiyyətin artırılmasına xüsusi fikir verir. BDU elmdə və təhsildə yüksək keyfiyyətin təmin olunmasını əsas vəzifələrindən hesab edir və keyfiyyət siyasətinin formalaşmasını idarəetmənin əsaslarından biri kimi nəzərdə tutur.*** Ölkənin davamlı inkişafı naminə elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etməklə "təhsil-elm-istehsalat" formatında fəaliyyətin qurulması, insan kapitalının inkişafında aparıcı mövqenin qorunması, tələbələrdə tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktik bilik, bacarıq və vərdişlərin formalaşdırılması, ölkədaxili və beynəlxalq əməkdaşlığın yeni müstəviyə yüksəldilməsi, dünyanın tanınmış ali təhsil müəssisələri ilə professor-müəllim heyətinin tərcrübəsinin artırılması, elmi nəticələrin istehsalatda tətbiq olunması, ölkənin və cəmiyyətin sosial-iqtisadi problemlərinin həllində iştirak BDU-nun fəaliyyətinin tərkib hissəsidir.

"Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, son 4 ay ərzində BDU-nun Hirş indeksi 2 bal artaraq 55 olub. Hər bir əsərə istinadların orta sayı isə 6.68-ə qədər yüksəlib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 28.02 .2023

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08